*Mahmud Kaşğarlı* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 3 Sayı: 7 / 224-237 ISSN: 3005-3137
*Mahmud Kashgarly* International Scientific Journal. 2025 / Volume: 3 Issue: 7 / 224-237 e-ISSN: 3005-4982

DOI: https://doi.org/10.36719/3005-3137/7/224-237

**Arifə Zeynalova**
Naxçıvan Dövlət Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0009-0007-4556-2348
arifezeynalova9@gmail.com

# Azərbaycan dilinin inkişafinda və tədrisində H.K.Saniyev zirvəsi

## Xülasə

Hacı Kərim Sanılı (Saniyev Hacı Kərim Hüseyn oğlu) 1878-ci ildə Qazax mahalının Çaylı kəndində anadan olub. H.K.Saniyevin bir pedaqoq kimi öz dövrünün təhsil problemlərinin həllində, proqram və dərsliklərin hazırlanmasında, ölkədə savadsızlığın və geriliyin aradan qaldırılmasında, milli uşaq ədəbiyyatının təşəkkül tapmasında, yeni məktəblərin açılmasında, təhsilin ana dilində aparılmasında, həmçinin Azərbaycan ədəbiyyatının inkişafı və formalaşdırılmasında əhəmiyyətli xidməti olmuşdur. Onun bir müəllim-pedaqoq kimi fəaliyyəti diqqətəlayiqdir. Lakin milli təhsil tariximizdə və ədəbiyyatımızın inkişafında müəyyən rolu və xidmətinin olmasına baxmayaraq, təəssüf ki, respublikamızda Hacı Kərim Sanlı haqqında məlumatlar kifayət qədər yayılmamışdır. Müasir dövrdə orta məktəb şagirdlərinin H.K.Sanılı haqqında demək olar ki, heç bir məlumatı yoxdur. Çünki dərsliklərə H.K.Saniyev haqqında hər hansı bir məlumat daxil edilməmişdir. H.K.Saniyev xalqını, torpağını, dilini və ədəbiyyatını sevən və milli təhsil tariximizdə izi qalan müəllimlərdən biri olmuşdur. Sovet dövründə dərc edilmiş ensiklopediyalarda H.K.Saniyev (Sanılı) haqqında ümumiyyətlə, heç bir məlumat dərc edilməmiş, 2005-ci ildə nəşr olunmuş "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın II cildində isə onun haqqında qısa və natamam məlumatlar dərc edilmişdir. Hacı Kərim Sanılı savadlı nəslin formalaşması üçün çox işlər görmüşdür. Belə ki, 1905-ci ildə Qazax qəzasının ayrı-ayrı kəndlərində yeddi məktəb binasının tikilməsi haqqında tərtib olunmuş layihəni çara təsdiq etdirən, həmin binaların tikintisinə lazımi qədər maliyyə vəsaiti buraxılmasına qol çəkdirən, icazə alan məhz Hacı Kərim Sanılı olmuşdur. 1937-ci ildə ölkəni bürümüş qırmızı terror xalqımızın bir sıra dəyərli oğullarının, o cümlədən H.K.Saniyevin başının üstünü alır. Dəhşətli repressiyanın növbəti qurbanı H.K.Saniyev (Sanılı) olur. Məqalədə Azərbaycanda ana dilinin inkişafında və onun tədrisinin tıəkmilləşməsində özünəxas rolu olan Hacı Kərim Sanılıdan bəhs olunur.

***Açar sözlər:*** *Azərbaycan dili, H.K.Sanılı, müəllim-pedaqoq, rus-tatar məktəbi, təhsil.*

**Arifa Zeynalova**
Nakhchivan State University
Doctor of Philosophy in Philology, Associate Professor
https://orcid.org/0009-0007-4556-2348
arifezeynalova9@gmail.com

## H.K.Saniyev summit in the development and teaching of the Azerbaijan language


### Abstract

Haji Karim Sanili (Saniyev Haji Karim Huseyn oglu) was born in 1878 in the village of Chayli, Gazakh district. As a teacher, H.K.Saniev made a significant contribution to solving the educational problems of his time, preparing programs and textbooks, eliminating illiteracy and backwardness in the country, establishing national children's literature, opening new schools, conducting education in the mother tongue, and developing and shaping Azerbaijani literature.

His work as a teacher and educator is worthy of attention. However, despite his role and contribution to the history of national education and the development of our literature, unfortunately, information about Haji Karim Sanili has not been sufficiently disseminated in our republic. Nowadays, high school students have almost no knowledge about H.K.Sanili as the textbooks did not include any information about H.K.Saniyev. H.K.Saniyev was one of the teachers who loved his people, land, language, and literature and left a mark on our national education history. In encyclopedias published during the Soviet era, no information was published about H.K.Saniyev (Sanily), and in Volume II of the "Encyclopedia of the Azerbaijan Democratic Republic", published in 2005, brief and incomplete information about him was published. Haji Karim Sanili did a lot to create an educated generation. Thus, it was Haji Karim Sanili who, in 1905, had the Tsar approve the project for the construction of seven school buildings in separate villages of the Gazakh district, signed off on the allocation of the necessary financial resources for the construction of those buildings, and received permission. The red terror that swept the country in 1937 took the lives of a number of valuable sons of our people, including H. K. Saniev. The next victim of the terrible repression was H. K. Saniyev (Sanili).

***Keywords:*** *Azerbaijani language, H.K.Sanili, teacher-pedagogue, Russian-Tatar school, education*

## Giriş

Tanınmış pedaqoq, ictimai xadim, şair Hacı Kərim Hüseyn oğlu Saniyev (Sanılı) - XIX əsrin sonu XX əsrin əvvəllərində qəza məktəblərində fədakar müəllim kimi fəaliyyət göstərmiş və ədəbi yaradıcılıqla məşğul olmuş maarifçilərdəndir.

**Tədqiqat**

Hacı Kərim Saniyev 1876-cı ildə Qazax qəzasının Çaylı - Kəsəmən kəndində kəndli ailəsində dünyaya gəlmişdir. O, ilk təhsilini (1886-1893) mollaxanada almışdır. Hacı Kərim Saniyev 1893-cü ildə Zaqafqaziya Müəllimlər Seminariyasının tatar (Azərbaycan) şöbəsinə daxil olmuş və həmin Seminariyanı 1898-ci ildə bitirmişdir. Zaqafqaziya Müəllimlər Seminariyasının tatar bölməsinin məzunları sırasında H.K.Saniyevin özünəməxsus yeri olmuşdur. O, Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsində təhsil aldığı müddətlərdə rus və dünya mütəfəkkirlərinin və ziyalılarının elmi-bədii, pedaqoji fəaliyyəti ilə yaxından tanış olmaq imkanını əldə etmişdir. H.K.Saniyevin bir pedaqoq kimi dövrünün təhsil problemlərinin həllində, proqram və dərsliklərin hazırlanmasında, ölkədə savadsızlığın və geriliyin aradan qaldırılmasında, milli uşaq ədəbiyyatının təşəkkül tapmasında, yeni məktəblərin açılmasında, təhsilin ana dilində aparılmasında, həmçinin Azərbaycan ədəbiyyatının inkişafı və formalaşdırılmasında əhəmiyyətli xidməti olmuşdur. Onun bir müəllim-pedaqoq kimi fəaliyyəti diqqətəlayiqdir. Lakin milli təhsil tariximizdə və ədəbiyyatımızın inkişafında müəyyən rolu və xidmətinin olmasına baxmayaraq, təəssüf ki, respublikamızda Hacı Kərim Sanılı haqqında məlumatlar kifayət qədər yayılmamışdır. Müasir dövrdə orta məktəb şagirdlərinin H.K.Sanılı haqqında demək olar ki, heç bir məlumatı yoxdur. Çünki dərsliklərə H.K.Saniyev haqqında hər hansı bir məlumat daxil edilməmişdir. Düşünürük ki, bu qüsurlar aradan qaldırılmalı, H.K.Saniyev və onun pedaqoji fəaliyyəti haqqında məlumatlar müvafiq dərsliklərə daxil edilməlidir. Çünki H.K.Saniyev xalqını, torpağını, dilini və ədəbiyyatını sevən, milli təhsil tariximizdə izi qalan müəllimlərdən biri olmuşdur. Sovet dövründə dərc edilmiş ensiklopediyalarda H.K.Saniyev (Sanılı) haqqında ümumiyyətlə, heç bir məlumat dərc edilməmiş, 2005-ci ildə nəşr olunmuş "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın II cildində isə onun haqqında qısa və natamam məlumatlar dərc edilmişdir. İstər Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasında, istərsə də digər kütləvi nəşrlərdə və elmi əsərlərdə onun doğum tarixi 1878-ci il göstərilmişdir.

Azərbaycan Respublikasının bəzi axivlərində, o cümlədən Azərbaycan Respublikasının Dövlət Arxivi, Dövlət Tarix Arxivi Dövlət Ədəbiyyat və İncəsənət

Arxivlərində tanınmış pedaqoq, ictimai xadim, şair Hacı Kərim Hüseyn oğlu Sanılının həyat və fəaliyyətinə dair qiymətli sənədlər qorunub saxlanılır.

Qazax ali-ibtidai məktəbin müəllimi vəzifəsini icra edən Hacı Kərim Saniyevin xidməti haqqında 1917-ci noyabrın 25-də tərtib edilmiş digər formulyar siyahıda göstərilir ki, o, 1898-ci il iyunun 7-də Zaqafqaziya Müəllimlər Seminariyasının tam kursunu bitirərək 311/631 №-li şəhadətnaməni əldə etmiş, sonar isə Yelizavetpol quberniyası və Qars vilayəti xalq məktəbləri direktorunun 8 sentyabr 1898-ci il tarixli qərarı ilə Nuxa qəzasının Xaçmaz məktəbinə müəllim təyin edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, H.K.Saniyevin Zaqafqaziya Müəllimlər Seminariyasının tatar (Azərbaycan) şöbəsini bitirdikdən sonar müəllimlik etdiyi ilk məktəbin hansı qəzaya aid olduğu arxiv sənədlərində müxtəlif cür qeyd edilir. Məsələn, onun xidmətləri haqqında 1910-cu il fevralın 12-də tərtib edilmiş formulyar siyahıda Xaçmaz məktəbinin Şuşa qəzasına, 25 noyabr 1917-ci ildə tərtib edilmiş formulyar siyahıda Xaçmaz məktəbinin Nuxa qəzasına və nəhayət H.K.Saniyevin sənədlərinin göndərilməsi haqqında Yelizavetpol quberniyası xalq məktəbləri direktorunun, 1904-cü ildə tərtib etdiyi müşayiət məktubunda isə Zəngəzur qəzasına aid olduğu qeyd edilmişdir. Yəni ayrı-ayrı sənədlərdə Xaçmaz məktəbinin Şuşa qəzasına, başqa sənəddə Nuxa qəzasına, digərində isə Zəngəzur qəzasına aid olduğu qeyd edilir. Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin “Yelizavetpol quberniyasının xalq məktəbləri direksiyası fondu”nda (f.406-da) saxlanılan Yelizavetpol xalq məktəbləri direktorunun H.K.Saniyevin sənədlərinin göndərilməsi haqqında 1904-cü ildə tərtib etdiyi müşayiət məktubunda qeyd edilirdi ki, Yelizavetpol məscid rus-tatar məktəbinin keçmiş nəzarətçisi Hacı Kərim Saniyev 1 sentyabr 1898-ci ildən 1 sentyabr 1902-ci ilədək Zəngəzur qəzasının Xaçmaz məktəbində; 1 sentyabr 1902-ci ildən 1 mart 1904-cü ilədək isə Yelizavetpol məscid rus-tatar məktəbində nəzarətçi vəzifəsində işləmişdir. Yeri gəlmişkən xatırladırıq ki, həmin dövrdə Xaçmaz kəndi Yelizavetpol quberniyasının Nuxa qəzasının tərkibinə daxil olmuşdur. Ona görə də bəzi elmi əsərlərdə Xaçmaz məktəbinin məhz Nuxa qəzasına aid olduğu qəbul edilmişdir. Qazax ali-ibtidai məktəbinin müəllimi H.K.Sanılının xidmətləri haqqında 25 noyabr 1917-ci ildə tərtib edilmiş formulyar siyahıda da onun, Yelizavetpol quberniyası və Qars vilayəti xalq məktəbləri direktorunun 8 sentyabr 1898-ci il tarixli qərarı ilə Nuxa qəzasının Xaçmaz məktəbində müəllim təyin edildiyi qeyd edilmişdir. Hacı Kərim seminariya illərini unutmamış və bu haqda yazmışdır: “Seminariya! Gəncliyimin ən gözəl çağlarını səndə keçirdim və mən buna heyfsilənmirəm. Sən bizim xalqımızın gözünə işıq oldun, onu mədrəsələrdən işıqlı otaqlara çıxartdın” (https://az.wikipedia.org/wiki/Hac%C4%B1_K%C9%99rim_San%C4%B1l%C4%B1).

H.K.Saniyev Yelizavetpolda rus-tatar məktəbində işləyərkən azərbaycanlı qızların da məktəbə cəlb edilməsinə çalışmışdır. Lakin onun bu cəhdi yerli dindarlar

tərəfindən çox ciddi etirazlarla qarşılandığı üçün bu fikri həyata keçirmək mümkün olmamış və cavab olaraq H.K.Saniyevə qarşı sıxışdırmalar, təzyiqlər başlanmışdır. Nəticədə rus-tatar məktəbinə çevrilmiş Yelizavetpol məscid məktəbinin nəzarətçisi H.K.Saniyev 1904-cü il fevralın 27-də Yelizavetpol quberniyasının xalq məktəbləri direktoruna raportla müraciət etməyə məcbur olmuşdur. H.K.Saniyevin Yelizavetpol quberniyasının xalq məktəbləri direktoruna ünvanladığı raportda qeyd edilirdi: "Yelizavetpol şəhərinin bəzi qabaqcıl müsəlmanları şiddətli şəkildə mənə qarşı çıxmış və xalqı aşkarcasına mənə qarşı qaldırmışlar ki, bunun da mənim həyatıma acınacaqlı təsiri ola biləcəyini nəzərə alaraq sizdən - Zati-alidən xahiş edirəm ki, məni tutduğum vəzifəmdən azad edəsiniz".

Arxiv sənədlərindən əldə edilmiş məlumata əsasən, Yelizavetpol quberniyası xalq məktəbləri direktorunun təklifi ilə H.K.Saniyev 1904-cü il martın 1-dən etibarən vəzifəsindən azad edilmişdir. H.K.Saniyev işdən azad edildikdən sonar 1904-cü ilin martından 1905-ci ilin sentyabrına qədər istefada olmuşdur. O, həmin müddət ərzində olduqca ağır maddi ehtiyaclar içində yaşamışdır. H.K.Saniyevin 1904-cü il martın 29-da Qazax şəhərindən Yelizavetpol xalq məktəbləri direktoruna göndərdiyi ərizədə qeyd edilirdi: "Bununla iki ədəd 60 qəpiklik marka göndərərək Zati-alidən xahiş edirəm ki, sizin dəftərxanada olan mənim sənədlərimi və mənim xidmətim haqqında attestatı aşağıdakı ünvana göndərəsiniz: Qazax şəhəri. Qazax qəza idarəsi vasitəsilə Çaylı kənd sakini, müəllim – Hacı Kərim Saniyevə".

H.K.Saniyev 1904-cü ilin martında Yelizavetpol məscid məktəbinin nəzarətçisi vəzifəsindən azad olunduqdan sonar özünə mülki məhkəmə idarəsində iş yeri tapa bilmişdir. Lakin əvvəlki iş yerindən onun sənədləri gec göndərildiyi üçün o, bu iş yerini itirmişdir. H.K.Saniyev daha sonra 1904-cü il oktyabrın 28-də Yelizavetpol quberniyasının I rayonu üzrə xalq məktəbləri müfəttişliyinə ərizə ilə müraciət edərək onun birsinifli Qıraqkəsəmənli məktəbinə müəllim təyin edilməsini xahiş etmişdir. Lakin həmin məktəbdə boş yer (vakansiya) olmadığı üçün o, işlə təmin olunmamışdır.

Yelizavetpol məscid rus-tatar məktəbinin keçmiş nəzarətçisi Hacı Kərim Saniyev 1905-ci il mayın 4-də Yelizavetpol quberniyasının xalq məktəbləri direktoruna ərizə ilə müraciət edərək ona birsinifli Poylu məktəbində müəllim-nəzarətçi vəzifəsinin verilməsini xahiş etmiş və sənədlərinin direksiyanın müfəttişində olduğunu qeyd etmişdir.

H.K.Saniyev Yelizavetpol xalq məktəbləri direktorunun 5 sentyabr 1905-ci il tarixli 2085 №-li sərəncamı ilə Poylu məktəbinə nəzarətçi ("smotritel") vəzifəsinə təyin edilmişdir. Poylu məktəbində müəllim işlədiyi müddətdə xeyli çətinliklərlə qarşılaşmasına və ağır şəraitdə yaşamasına baxmayaraq, o, ruhdan düşməmiş və

müəllimlik şərəfini daim uca tutmuşdur. Arxiv sənədlərindən əldə edilmiş məlumatlara əsasən, Qafqaz Tədris Dairəsi Popeçitelinin 30 may 1906-cı tarixli təklifi ilə H.K.Sanılı 1906-cı ilin fevral ayından etibarən Daşkəsəmən normal məktəbinə ikinci müəllim təyin edilmişdir. H.K.Saniyev Qafqaz Tədris Dairəsi Qəyyumunun 30 may 1906-cı il tarixli 7900 №-li göstərişi ilə Dağkəsəmən məktəbindən Gorusa göndərilmiş Saruxanyanın yerinə müəllim təyin edilmişdir. H.K.Sanılı Daşkəsəmən məktəbində rus dili müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirmişdi. O, həmin dövrdə sahibsiz və yetim qalmış uşaqların qayğısına qalmaqla, maarif və mədəniyyəti yaymaqla, həmçinin Azərbaycan dili və ədəbiyyatını, rus dili və ədəbiyyatını təbliğ etməklə böyük xidmətlər göstərmişdir. Xalqını elmli, azad, müstəqil görmək arzusunda olan H.K.Sanılı, ictimai-siyasi fəaliyyətə qoşulmuş, milli şüurun oyanması prosesində yaxından iştirak etmişdir.

O, milli şüurun inkişafının nəticələrindən biri kimi yaradılmış “Müdafiə” partiyasının üzvü olmuşdur. Qeyd edirik ki, 1905-1906 və 1911-ci illərdə bir-birinin ardınca “Qeyrət”, “Difai”, “Müdafiə”, “Musavat” partiyaları yaradılmış və milli hərəkat gücləndirilmişdir. Üzvü olduğu partiya H.K.Saniyevin ictimai-siyasi baxışlarının inkişafında mühüm rol oynamışdır. Bu partiyanın mütərəqqi fəaliyyəti çar hakimiyyətinin diqqətini cəlb etmiş və tezliklə həmin partiyanın bir sıra üzvləri, o cümlədən H.K.Sanılı ciddi nəzarət altına götürülmüşdür.

Həmin dövrün bəzi idarə və şəxsləri tərəfindən H.K.Sanılı haqqında həqiqətdən uzaq, saxta, iftira dolu məlumatlar toplanaraq yuxarı orqanlara göndərilmişdir. Nəticədə 1906-cı ildə siyasi baxışlarına görə H.K.Saniyev həbs edilmişdir. Öz dövrünün mütərəqqi ziyalısı F.B.Köçərli onun həbsini lənətləyərək 1906-cı ildə 37 №-li “İrşad” qəzetində yazdığı “El üçün ağlayan gözsüz qalar” adlı məqaləsində qeyd edirdi: “Paxıl, həsəd və iftira səbəbi ilə nahaq və biçərm məhbus olanlar Qazax mahalında cənab Ağabəy Qiyasbəyov və müəllim Hacı Kərim Saniyevdir... Bunları güdaza verən ancaq öz içimizdən törəyən xaric-məslək mürtədlər olubdur ki, divanbəyinin və uyezd naçalnikinin ətrafında quyruqlarını bulayı dəyanət və rəzalətləri ucundan… millət xadimlərini bəd-fənayə verməyi özlərinə böyük hünər və qərəz bilirlər” (F.B.Köçərli, 1906-cı il, 37 №-li “İrşad” qəzeti, “El üçün ağlayan gözsüz qalar” adlı məqaləsindən).

1906-cı ilin sentyabrında Dağkəsəmən məktəbi yoxlanılarkən H.K.Saniyev haqqında yazılanların doğru olmadığı üzə çıxmışdır. Qafqaz tədris dairəsi direktorunun Yelizavetpol qubernatoruna göndərdiyi 30 yanvar 1907-ci il tarixli 273 №-li yazılı məlumatda qeyd edilirdi: “Əlahəzrətə məlum etməyi özümə borc bilirəm ki, mənim tərəfimdən tərtib edilmiş xasiyyətnamədən və həmçinin 22 mart 1906-cı ildən onun davranışından, 1906-cı ilin sentyabrındakı yoxlama nəticəsindən aydın

olur ki, o, gözəl əxlaqi keyfiyyətlərə malikdir, rus dilini və mədəniyyətini xalqın arasında yayan ağıllı və çox lazımlı şəxsiyyətdir. Saniyevin vicdanlı fəaliyyəti nəticəsində Dağkəsəmən məktəbində müsəlman qızları rus dilini öyrənirlər".

H.K.Sanılının rus dilini və ədəbiyyatını dərindən bilməsi yerli çar orqanları tərəfindən bəyənilir və bu, onların maraqlarına cavab verirdi. Yoxlamanın nəticəsində H.K.Saniyev həbsdən azad edilir. Həbsdən azad olduqdan sonra H.K.Saniyev pedaqoji fəaliyyətini davam etdirmişdir. O, daim öz xalqının yanında olmuş və onun dərdinə qalmış ziyalılardandır. Daşkəsəmən məktəbində özünün nümunəvi fəaliyyəti ilə qısa bir müddətdə ictimaiyyətin dərin hörmətini qazana bilmişdir.

H.K.Sanılı 1908-ci ildə ailə həyatı qurmuşdur. O, 1908-ci il yanvarın 6-da Xuraman xanım Axund Nağı qızı Qanizadə ilə nikah bağlayaraq evlənmişdir. Həmin nikahdan onun iki oğlu və iki qızı olmuşdur. Oğlu İslam 2 iyun 1910-cu ildə, digər oğlu Bəhram isə 27 aprel 1912-ci ildə anadan olmuşdur. Qızı Zəkiyə 16 yanvar 1914-cü, Lətifə isə 6 yanvar 1916-cı ildə dünyaya gəlmişdir.

1909-cu il oktyabrın 19-da mülki idarələr üzrə verilmiş əmrlə, H.K.Saniyev 5 oktyabr 1906-cı il tarixdən etibarən kollec qeydiyyatçısı vəzifəsinə keçirilmişdir. H.K.Saniyev Qafqaz Tədris Dairəsinin 13 may 1910-cu il tarixli göstərişinə əsasən, Sankt-Peterburq Müəllimlər İnstitutu nəzdində təşkil edilmiş əl əməyi kurslarına ezam edilmişdir. O, həmin kursu bitirdikdən sonar institutun direktoru A.Konstantinovski və müəllimlərdən M.Kareilinin imzası ilə vəsiqə əldə etmişdir. Vəsiqədə qeyd edilirdi ki, H.K.Saniyev təlim-tərbiyə predmeti kimi əl əməyi haqqında tarixi və nəzəri biliklərə yiyələnmişdir və ümumi təhsil məktəblərində tədrisə buraxıla bilər.

İkisinifli Dağkəsəmən məktəbinin müəllimi Hacı Kərim Saniyev 1914-cü il sentyabrın 2-də Yelizavetpol quberniyasının 2-ci rayonu üzrə xalq məktəbləri müfəttişinə ərizə ilə müraciət edərək ona Qazax şəhərində açılan ali-ibtidai məktəbdə rəsmxət və rəsm müəllimi vəzifəsinin verilməsini xahiş etmişdir. Yelizavetpol quberniyası xalq məktəbləri direktorunun 9 sentyabr 1914-cü il tarixli 8942 №-li qərarı ilə H.K.Saniyev Qazax ali-ibtidai məktəbinə qrafik incəsənət müəlliminin vəzifələrini icra edən təyin edilmişdir. H.K.Saniyevin pedaqoji fəaliyyəti yüksək qiymətləndirilmiş və o, 1912-ci il dekabrın 6-da xüsusi əmək və xidmətlərinə görə, 3-cü dərəcəli Müqəddəs Stanislav ordeni ilə təltif edilmişdir. Yelizavetpol quberniyası xalq məktəbləri direktorunun 19 sentyabr 1914-cü il tarixli 8942 №-li qərarı ilə H.K.Sanılı Qazax ali-ibtidai məktəbində qrafik incəsənət üzrə müəllim vəzifəsinin icraçısı təyin edilmişdir.

H.K.Saniyev 1917-ci ildə "Hümmət" partiyasına daxil olmuşdur. O, 1918-ci ildə həbs olunur və beş ay müddətdən sonra buraxılır. O, xalqını həmişə azad, elmli və

mədəni görmək istəmiş, öz xalqını, ədəbiyyatını və dilini sevən insan olmuşdur. Bu, onun bir sıra şerlərində də öz əksini tapmışdır. 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin üzvü olduğu dövrdə çap etdirdiyi "Yeni Şərqilər" kitabçası ilk dəfə 1919-cu ildə "Elektrik Novruz" mətbəəsində çap olunmuşdur. "Yeni şərqilər" kitabçası yazılmış 14 kiçik əsərdən - şeirdən ibarətdir. "Yeni şərqilər" kitabçasının H.K.Sanılının yaradıcılığının birinci dövrünə aid olduğunu söyləmək mümkündür.

Hacıkərim (Hajkərim) Saniyev (Sanılı) 1919-cu ildə Azərbaycan aşıqlarına həsr etdiyi "Yeni şərqilər" kitabını nəşr etdirəndə Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü idi. Və həmin kitabın ilk şeiri olan "Qabaq sözü" belə başlayır:

Söylədiyim Azərbaycan dilidir,
Mən dərdiyim vətənimin gülüdür.
Bu çaldığım el sazının telidir,
Gərək səsi ürəkləri oynada.

Aşıq bunu çalacaqdır ellərdə,
Çoban-çoluq oxuyacaq çöllərdə,
İnandığım budur, gəzə dillərdə,
Çağıralar onu bağda-bağçada
(Cəfərov 525-ci qəzet. 2017, s. 15).

Türk dillərindən biri olan Azərbaycan dilinin necə adlandırılması uzun müddət mübahisəli olmuşdur. Hətta bu şeirin çap olunduğu ildə Azərbaycan dili Hacı Kərim Sanılının üzvü olduğu Cümhuriyyət Parlamentində də rəsmi olaraq "türk dili" adlanırdı. "Yeni şərqilər"in müəllifi isə Məhəmməd ağa Şahtaxtlı, Cəlil Məmmədquluzadə kimi müasirlərinə qoşulub ana dilini "Azərbaycan dili" adlandırır. Və söhbət o dildən gedir ki:

Mən bilirəm, eşidəndə bu dili
Çırpınacaq Azərbaycan bülbülü,
Dindirəcək öz dilində o gülü,
Açılacaq şirin söhbət ortada.

Gah ərəbin, gah da farsın dilində,
Gah onların, gah da rusun dilində,
Danışanda özgəsinin dilində
Öz dilin yanılmışdı dünyada.

Bundan belə təzə yollar açılar,
O yollara əlvan çiçək saçılar,
Özgə şivə, özgə sözdən qaçılar,
Daha bir də biz uymarıq hər yada…

Hacı Kərim Sanılı mənsub olduğu xalqını, məmləkətini təmmənnasız bir məhəbbətlə sevirdi. Və xalqdan, məmləkətdən çox, bu sevginin övladı idi. Ona görə də yazırdı:

İlxında ayğır kişnəşir,
Naxırda buğac güləşir,
Süründə əmlik mələşir,
Azərbaycan, Azərbaycan!

Qayaların əlvan mərmər,
Belində var qızıl kəmər,
Bir yanında bəhri-Xəzər,
Azərbaycan, Azərbaycan!

Sənbək odu şölə salır,
Dünya səndən işıq alır,
Verməyəndə xapan qalır,
Azərbaycan, Azərbaycan!

XX əsrin əvvəllərində Azərbaycan ziyalıları qarşısında duran əsas məsələlərdən biri də milli məktəb və təhsilin yaradılması olmuşdur. Bununla bağlı uşaq ədəbiyyatı və dərs vəsaitlərinin yaradılması xüsusi əhəmiyyət kəsb edirdi. Bu dövrdə yazıda ərəb əlifbasından istifadə edirdi ki, bu da tədrisdə müəyyən çətinliklər törədir, ana dilinin öyrənilməsində çətinliklər yaradırdı. Dövrün qabaqcıl ziyalıları dərsliklərin və uşaq ədəbiyyatının yaradılmasında böyük həvəslə çalışırdılar. 1901-ci ildə R.Əfəndiyevin "Bəsirət-ül-əffal", 1907-ci ildə S.S.Axundov, F.Ağayev, A.Şaiq, Ə.Əfəndiyev "İkinci il", 1909-cu ildə M.Mahmudbəyov və A.Səhhət "Üçüncü il" dərsliklərini, 1910-cu ildə A.Şaiq "Uşaq gözlüyünü", 1912-ci ildə F.b.Köçərli "Balalara hədiyyə" müntəxəbatını nəşr etdirdilər. Azərbaycan ziyalıları, müəllim və pedaqoqları təhsilin ana dilində aparılması, yeni məktəblərin yaradılması və yeni əlifba uğrunda mübarizəyə qoşulmuşdular. Yeni məktəblərin yaradılması və yeni əlifba uğrunda mübarizədə H.Zərdabi, M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, N.Nərimonov,

F.b.Köçərli, S.M.Qənizadə, N.B.Vəzirov, Ü.b.Hacıbəyov, Ə.b.Hüseynzadə, C.Məmmədquluzadə müxtəlif cərəyanları təmsil etməsinə baxmayaraq, milli mənafe uğrunda eyni platformada dayanırdılar. H.K.Saniyev Oktyabr inqilabından sonra Bakıya gəlir. Savadsızlığın ləğvi uğrunda fəaliyyət göstərir. Yeni əlifba komitəsinin işində, yeni tədris proqramı və dərsliklərin yaradılmasında fəal iştirak edir. H.K.Sanılının pedaqoji tarixində ən böyük xidmətlərindən biri də yüksək keyfiyyətli dərsliklər tərtib etməsi olmuşdur. Onun latın qrafikası ilə "Böyüklər üçün əlifba kitabı" (1924), "Türk əlifbası" (1927, 1930), Ə.Seyidovla birlikdə tərtib etdiyi "Türk əlifbası" (1930), Ö.F.Nemanzadə və A.Axundovla birlikdə hazırladığı "Üçüncü il" (1927, 1929, 1930) adlı dərslikləri dəyərlidir. XX əsrin əvvəlindəki bu fəaliyyət təqdirəlayiqdir. Həmin dövrə qədər Azərbaycanda uzun müddətli köhnə üsullu tədrisdən sonar bu proses ana dilinin inkişafına xeyli dərəcədə təsir edirdi: "Tarixdə XIX əsrə nəzər salsaq görərik ki, bu dövrdə farsların təsiri nəticəsində mollaxana tədrisi öz yerini möhkəm tutmuşdur. Burada plansız dərslər, çərəkə, höccələmə üsulunun öyrədilməsi Azərbaycan dilinin inkişafdan qalmasına, ədəbi dilin yox olmasına səbəb olmuşdur" (Məmmədova, 2021, s. 81).

H.K.Saniyev vətən övladlarının əxlaqlı və namuslu, hərtərəfli biliyə malik şəxslər kimi yetişməsi üçün əlindən gələni etmiş, yaradıcılıqla məşğul olmuşdur. O, 1927-ci ildə əxlaqi, təlim-tərbiyəvi gücə malik "Kəndimiz və Aran köçü", "Dəli öküz", "Turut qaçaqları", "Meymun və ilan", "Namus davası" və b. tarixi hekayə və poemalar yazır.

H.K.Saniyev 1930-cu illərdən başlayaraq "qolçomaq", "sinfi düşmən" və digər ifadələrlə ləkələnməyə başlanmış və 1931-ci ildən etibarən ədalətsiz olaraq dərsliklərin hazırlanması işindən uzaqlaşdırılmışdır.

H.K.Sanılının pedaqoji ideyaları içərisində ən vacib yeri insanların əmək tərbiyəsi məsələsi tuturdu. O, şagirdləri əməyə, yaradıcı əməyə dəvət edir və zəhmətlə yaşamağa çağırırdı. Sanılı "İşçi mahnısı", "Zərbəçi qızlar", "Əkinçi", "İşçi qadın və xanım", "Çadra əsirləri" və b. şeirlərində, "Namus davası", "Zülmün sonu" poemalarında və tərtib etdiyi dərsliklərdə qadın azadlığı və təhsili məsələlərinə geniş toxunmuş, onların təhsil-tərbiyəsi, hüquqlarının qorunması məsələlərini ön cərgəyə çəkmişdir. H.K.Sanılı ölkədə məktəb şəbəkəsinin zəifliyini ciddi tənqid etmiş, bununla bağlı çar hakimiyyətinin laqeydliyini kəskin pisləmiş, yeni məktəblərin tikilməsinə şəxsi təşəbbüs göstərmişdir. Sanılı, həmçinin məktəbi cəhalət və nadanlıqdan xilas yolu hesab edərək məktəblərə ümumxalq qayğısının vacib olduğunu söyləmiş, dərsliklərin sadə, başa düşülən tərzdə yazılmasını vacib saymışdır.

1937-ci ildə ölkəni bürümüş "qırmızı terror" xalqımızın bir sıra dəyərli

oğullarının, o cümlədən H.K.Saniyevin başının üstünü alır. Dəhşətli repressiyanın növbəti qurbanı H.K.Saniyev (Sanılı) olur.

Hacı Kərim Sanılı "Muğan", "Təzə mahnı", "Azərbaycan xalqına", "Əkinçilər", "Rəssam Əzim Əzimzadə", "Elm ocaqları" və s. kimi şeirlərin müəllifidir. Şairin şeirlərində ərəb, fars və digər dillərdən keçmə sözlərə rast gəlinmir. Dil məsələsinə çox ciddi yanaşan ədib 1934-cü ildə Azərbaycan yazıçılarının I qurultayında bu mövzu ilə əlaqədar çıxış edərkən öz dilini bəyənməyib, özgə dildə danışanlara bu cür müraciət etmişdir:

Bundan sonra təzə yollar açılar,
Bu yollara əlvan çiçək saçılar.
Özgə şivə, özgə sözdən qaçılar
Daha bir də biz uymarıq hər yada.

Şairin fikrini başa düşməyənlər 1934-cü ildə Azərbaycan Yazıçılar İttifaqının I qurultayında Hüseyn Cavidlə, Əhməd Cavadla bərabər Hacı Kərim Sanılını da tənqid atəşinə tuturlar. Sanılının yalnız dövri mətbuat səhifələrində - "Şərq qadını", "Maarif və mədəniyyət", "Yeni kənd", "Kəndli qəzetəsi", "Yeni yol", "Kommunist" və s. jurnal və qəzetlərdə şeirləri çap olunmuşdur (Məhərrəmova, 2015, s. 85).

Hacı Kərim Sanılının ilk kitabı olan "Canavarlar hökuməti" 1918-ci ildə nəşr edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti zamanında - 1919-cu ildə Bakıda "Novruz" mətbəəsi tərəfindən "Yeni şərqilər" kitabı çap edilmişdir. Bundan sonra 1927-ci ildə üç kitabı – "Kəndimiz və Aran köçü", "Namus davası", "Zülmün sonu" və 1935 və 1964-cü ildə "Turud qaçaqları", 1993-cü ildə isə "Seçilmiş əsərləri" şeir kitabları nəşr edilmişdir. Habelə Sanılının M.F.Axundzadə adına Respublika Milli Kitabxanasının arxivində "Yeni şərqilər" adlı kitabının surəti saxlanılır. Həmin kitab 1919-cu ildə AXC parlamentinin üzvü olduğu dövrdə çap olunumşdur. Hacı Kərim Sanılı özünü "Yeni Şərqilər"in yazanı və çap edəni olaraq "Azərbaycan parlamentinin üzvü Hacı Kərim Sanılı" olaraq təqdim etmişdir. Yazarların bəzən "Mahnılar" adıyla təqdim etdikləri bu topluda müəllifin 14 şeiri toplanıb. İkinci şeir - buradakı bütün şeirlərin hamısı xalq yaradıcılığı üslubundadır. Kitabça "Elektrik Novruz" mətbəəsində çap olunmuşdur.

Maarifpərvər şair, metodist, pedaqoq Hacı Kərim Sanılı Əli Məhzunla birgə uşaqlar üçün "Meymun və ilan" mənzuməsini yazmışdır. Doqquz səhifədən ibarət olan bu kitabça 1929-cu ildə Bakı şəhərində "Azərnəşr"də nəşr olunmuşdur. Kitabçaya səkkiz uşaq əsəri daxildir. Onlardan dördü Hacı Kərim Sanılının qələminin məhsuludur. H.K.Sanılı Qazax qəzasında maarif və mədəniyyətin inkişafı üçün çox

zəhmətlərə qatlaşır. Bu sahədə xidmətlərinə görə III dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunur. Qafqaz Təhsil Dairəsinin göndərişi ilə o, 1910-cu ilin yayında Sankt-Peterburq Müəllimlər İnstitutunun nəzdində açılan ələməyi kursuna ezam olunur. Rus inqilabçıları ilə yaxından tanış olduğu Sankt-Peterburq həyatı Sanılının ictimai-siyasi cəhətdən formalaşmasında mühüm rol oynayır. Qayıtdıqdan sonar müəllimliklə yanaşı, orta məktəblər üçün dərsliklər yazır...

H.K.Sanılı Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü olub və aktiv fəaliyyət göstərib. Latın qrafikalı yeni Azərbaycan əlifbasının yaradılmasında yaxından iştirak edən H.K.Sanılı "Əlifba", "Böyüklər üçün əlifba", Ə.Seyidovla birgə "Türk əlifbası", "Üçüncü il" və s. dərsliklərini tərtib edib.

Rus, fransız və fars dillərini də mükəmməl bilən maarifçi Cümhuriyyət süqut etdikdən sonra da müəllimlik fəaliyyətini davam etdirir. 1922-ci ildə Nəriman Nərimanovun təklifi ilə Bakıya köçür. Yeni Türk Əlifba Komitəsində Fərhad Ağazadə, Bəkir Çobanzadə, Xudadat bəy Məlikaslanov, Mirzə Cabbar Məhəmmədzadə, Hüseyn İsrafilbəyov, Mirzə Hüseyn Camalzadə, Vəli Xuluflu, İdris Həsənli, Mənsur Qurbanzadə ilə birgə çalışır. Savadsızlığı ləğvetmə kurslarında dərs deyir. Bütün bunlarla yanaşı, bədii yaradıcılıqla da məşğul olan qələm sahibi əsərlərində şifahi xalq ədəbiyyatı ənənələrinə geniş yer verib. Araşdırmalardan məlum olur ki, müəllifin "Aran köçü", "Namus davası", "Zülmün sonu", "Novruz və Gülara", "Turut qaçaqları" poemaları maraqla qarşılanıb. Şairin kəndlilərin aran-yaylaq həyatından bəhs edən "Aran köçü" poeması 1924-cü ildə işıq üzü görüb. Şairin poemaları "Şərq qadını", "Maarif və mədəniyyət", "Yeni kənd", "Kəndli qəzeti", "Yeni yol", "Kommunist" və s. jurnal və qəzetlərdə dərc olunub.

H.K.Sanılının "Muğan", "Təzə mahnı", "Azərbaycan xalqına", "Əkinçilər", "Rəssam Əzim Əzimzadə", "Elm ocaqları" və s. şeirləri dilinin sadəliyi, axıcılığı ilə seçilir. Dil məsələsinə çox ciddi yanaşan ədib 1934-cü ildə Azərbaycan yazıçılarının I qurultayında bu mövzu ilə əlaqədar çıxış edərkən öz dilini bəyənməyib, əcnəbi dildə danışanlara şeirlə müraciət edərək irad tutub.

Şairin yaradıcılığında qadın azadlığı mövzusu da xüsusi yer tutur. Onun "Xoş gəlir", "Evdar qadınlara", "Qadınlar günü", "Kənd qızı" və s. şeirləri 1927-1928-ci illərdə "Şərq qadını" jurnalında dərc edilib. O, hər bir şeirində qadına cəmiyyətin bərabərhüquqlu üzvü kimi baxırdı.

N.Cəfərov Hacı Kərim Sanılı ilə bağlı araşdırmasında yazır ki, … "şair Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində çıxışlarında da geniş xalq kütlələrinin mənafeyini bir ziyalı-maarifçi məsuliyyəti ilə müdafiə edib. Onun "Yeni şərqilər" kitabında (Bakı, 1919) iki "deyişmə" verilib: "Müsavat lideri Məhəmməd Əmin Rəsulzadə ilə Səmədağa Ağamalı oğlunun Parlamanda deyişməsi" və "Parlamanda

deyişmə (tapmaca)" - hər iki şeir 1918-ci ildə qələmə alınıb..." (5).

Hacı Kərim Sanılını 1937-ci il iyunun 3-də Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq və Vəli Xuluflıdan bir gün qabaq həbs edirlər. Ədib öz yaşadığı evdə həbs edilir. O, həmin illərdə Bakı şəhəri, Füzuli küçəsində yaşayırdı. Ədibə "qolçomaq burjua yazıçısı", "xalq düşməni" damğası vurulur. NKVD-nin 1-ci şöbəsinin təhlükəsizlik leytenantı Klimentiç 12493 №-li istintaq işinin materiallarına əsaslanaraq heç bir partiyanın üzvü olmayan Hacı Kərim Sanılının əks-inqilabi-millətçi təşkilatında fəaliyyət göstərdiyini "müəyyənləşdirir" və vətənə xəyanət maddələri ilə həbs edir.

İstintaq işinə əsasən, 4-cü şöbənin rəisi, təhlükəsizlik üzrə kapitan Kinmanla razılaşdırılan və qəbul edilən qərar Xalq Daxili İşlər Komissarı Sumbatov tərəfindən təsdiq olunur. Onu sovet işğalına qarşı mübarizə aparan "Əzrayıl firqəsi"-nə üzv olmaqda və mühacirətdə mübarizə aparan Məhəmməd Əmin Rəsulzadə ilə əlaqə saxlamaqda ittiham edirlər. Hacı Kərim Sanılı haqqında qaldırılan cinayət işinin qərarında qeyd olunumuşdur: "Qolçomaq ailəsindən olan Hacı Kərim Sanılı Azərbaycanın sovetləşməsi zamanı "Əzrail" firqəsi adlı təşkilat yaratmışdır. Hazırda Ticarət və Kooperasiya İnstitutunun müəllimi olan şair, yazıçı Azərbaycan təhlükəsizlik işçilərinin nəzər-diqqətini cəlb etmişdir" (Yaqublu, 2018, s. 82).

İstintaq-sorğu protokollarından məlum olur ki, istər çarizm dövründə, istər Cümhuriyyət zamanında, istərsə də Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra Hacı Kərim Sanılı xalqının azadlığı, vətəninin müstəqilliyi, millətinin savadlanması uğrunda mübarizələrdə fəal iştirakını təsdiq etmişdir. Hacı Kərim Sanılıya zindanda çox əzab verilirdi. O, NKVD zirzəmisində gündə bir neçə dəfə döyülüb təhqir olunurdu. Ədib həbs olunarkən Azərbaycan Yazıçıları İttifaqı bu məsələyə münasibətini bildirir. Həmin fikirləri 9 iyun 1937-ci ildə "Ədəbiyyat qəzeti"ndə çap etmişdir: "Sovet Yazıçılar İttifaqında Sovet ədəbiyyatını və onun əsasını dağıtmağa çalışan Y.V.Çəmənzəminli, H.K.Sanılı, H.Cavid, M.Müşfiq, A.Musaxanlı, S.Hüseyn kimi düşmənlərə yer yoxdur".

İki aya yaxın NKVD zirzəmilərində əzab və işgəncələrə məruz qalan Hacı Kərim Sanılı məhkəməsiz ölüm kamerasında əzab və işgəncələrə tab gətirməyərək (guya ürək çatışmazlığından) dünyasını dəyişir. Digər bir mənbədə isə güllələnmə cəzasına məruz qaldığı göstərilir. Repressiyaya məruz qalan digər şəxsiyyətlər kimi Hacı Kərim Sanılının da qəbri məlum deyil.

## Nəticə

Beləliklə, Hacı Kərim Sanılı fəal müəllim və ictimai xadim kimi Azərbaycan təhsili, mədəniyyəti, ədəbiyyatı tarixində izi olan şəxsiyyətlərdədir. "Tarixi sələflərin

ideya irsindən gənc nəslin maariflənməsində istifadə etmək ədəbi və pedaqoji fikrimizi zənginləşdirən mənbə kimi çox böyük əhəmiyyətli iş sayılmalıdır" (Məmmədova, 2010, s. 5). Bu baxımdan, maarifçi, dilimizin qayğısına qalan Hacı Kərim Sanılının iris qiymətlidir.

## Ədəbiyyat


1. "Azərbaycan". 2010, 27 iyul.
2. "Ədəbiyyat və İncəsənət" qəzeti 1958, 29 noyabr.
3. "Hacı Kərim Sanılı" (az.). ens.az. 10 may 2019 tarixində arxivləşdirilib.
4. Cəfərov N. 525-ci qəzet.- 2017.- 24 iyun.- s.15.
5. Fərəcov S. Fədakar müəllim və ədib. -2020
6. Məhərrəmova K. "Sanılı dünyası". Bakı: "Elm-təhsil". 2015. 108.
7. Məmmədova A. Azərbaycan dilinin tədrisi tarixi (dərs vəsaiti). Bakı, "Kitabı aləmi", 2010, 138 s.
8. Məmmədova R. Azərbaycan dilinin tədrisi metodikasi elmində müxtəlif dil təlimləri. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 88, № 6, 2021 , s. 80-85.
9. Salmanlı R. İstiqlalçının maarifçilik fədakarlığı. Azərbaycan Xalq Cümhuriyyəti – 100. Azərbaycan. - 2018.- 5 may. - № 101. - S. 10.
10. Salmanlı R. "Ölüm kamerasında "ürəyi dayanan" şair" (az.). anl.az. 30 aprel 2017 tarixində arxivləşdirilib.
11. Sanılı H.K. "Seçilmiş əsərləri". Bakı: Bakı Universiteti Nəşriyyatı. 1993. 260.
12. Yaqublu N. Azərbaycan Milli Azadlıq Hərəkatı Ensiklopediyası. Bakı: Qanun Nəşriyyatı. 2018. səh. 97.
13. Hacı Kərim Sanılı. https://az.wikipedia.org/wiki/Hac%C4%B1_K%C9%99rim_San%C4%B1l%C4%B1


**Daxil oldu: 05.06.2025**
**Qəbul edildi: 10.07.2025**